**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№383/5** **15 dekabr 2025-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 8.1-ci, 8.2-ci və 8.4-cü bəndlərinin icrasına dair 2025-ci il ərzində görülmüş işlər barədə**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin maliyyə nəzarəti, o cümlədən müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə bağlı tövsiyələrini rəhbər tutaraq, “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunundan, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnamədən, Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) qarşısında üzvlük öhdəliklərindən və “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf Konsepsiyası”ndan (2021-2030-cu illər) irəli gələn vəzifələrin, Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 8.1-ci “Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi”, 8.2-ci “Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) üzvlük tələblərinin icrasının təmin edilməsi” və 8.4-cü “Beynəlxalq təşkilatlar və peşəkar qurumlar tərəfindən təqdim edilmiş materialların öyrənilməsi, müzakirəsi və tətbiqi” bəndlərin icrasının təmin edilməsi barədə hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 8.1-ci “Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi”, 8.2-ci “Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) üzvlük tələblərinin icrasının təmin edilməsi” və 8.4-cü “Beynəlxalq təşkilatlar və peşəkar qurumlar tərəfindən təqdim edilmiş materialların öyrənilməsi, müzakirəsi və tətbiqi” bəndlərinin icrasına dair 2025-ci il ərzində görülmüş işlər barədə hesabat nəzərə alınsın (əlavə olunur).
2. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**